# KİTABİ – DƏDƏ QORQUD ABİDƏSİNDƏ ƏXLAQ TƏRBİYƏSİ VƏ ONUN MOTİVLƏRİ

**1. Oğuz əxlaqının mahiyyəti və cəmiyyətdə durumu**

Əxlaq tərbiyəsi KDQ-də mühüm ailədə, icitami həyatda, orduda, ümumiyyətdə, bütün Oğuz cəmiyyətində başlıca yerlərdən birini tutur. Əxlaq KDQ qəhrəmanlarının, bütövlükdə dastanda əksini tapan Oğuz etnosunun davranış və rəftarlarında, bir-biri və digərləri ilə münasibətlərində əsaslandıqları prinsiplər məcmusudur.

Oğuz əxlaqının özülündə aşağıdaklar dayanır:
Sakral (İlahi) aləmdən gələn buyruqlar
Yaxşı – yaman
Olar – olmazlar
Cəmiyyətin nizamı (düzümü)

Sakral (İlahi) aləmin mövcudluğunu Dədə Qorqud haqqında söylənilən bir deyimdən aşkar etmək olar:

«Oğuzun ol kişi təmam bilicisiydi. Nə diyersə, olurdi. Qayibdən dürlü xəbər söylərdi. Haqq təalanın, könlinə ilham edərdi (D-2). Qorqud ata Oğuz xalqının çətin işlərini həll edərdi. Nə olsa, Qorqud ataya danışmayınca iş görməzdilər. O nə buyursa, qəbul edirdilər, sözünü tutub gedirdilər (D – 2).

Sakral aləmin buyruqlarının məcburedici iradəsi ilə (bunlar həm də buyurqların gücüdür) Dədə Qorqudun dili ilə deyilir:

«Allah-Allah deməyincə işlər onmaz.
Qadir Tanrı verməyincə ər bayımaz.
Əzəldən yazılmasa qul başına qəza gəlməz,
Əcəl vədə irməyincə kimsə ölməz» (8, s.131; D – 2).

KDQ-də əxlaqda nəyəsə, hansı davranışasa icazə verilir, (onlar) hansılarasa qadağalar (yasaqlar) qoyurlar. Bu icazələri, yasaqları müxtəlif şəkildə əsaslandırmaq olur. Məsələn, «Əski pambuq bez olmaz, qarı düşmən dost olmaz» (D – 3). Bu analogiya əsasında həqiqəti tapmaqdır. Bu həqiqəti tapmadan sonra Dədə Qorqudun söyləmədiyi, ancaq həmin analogiyadan özözünə doğan yasağı qeyd etmək olar: nə olursa-olsun, aldanıb əski yağını dost sayma.

Yasaq əlverişlilik, faydalılıq baxımından da olur. Məsələn, dastanın III boyunda Beyrək əsirlikdən qaçanda kafirə yasaını deyir:

«Mərə sasi dinli kafir!
Otuz doqız yigidim əmanəti,
mərə kafir!
Birin əksik (bulsam) yerinə on öldürəyim,
Onun əksik bulsam, yerinə yüzün öldürəyim, mərə kafir!» (kts – 60, D – 100).

Burada öz hədəfi ilə Beyrək kafir bəyinə igidlərini öldürməyi yasaq edir. Bu yasağı əsaslandırmaq, güclü etmək üçün kafirə bildirir ki, yasağı pozmamaq ona faydalı olar, yəni əvəzinə birə on öz adamlarını itirməz!

Yasaqlara dünyanın öz içində təməl, əsas tapmaq bütün əxlaqi öyrəntilərdə, təlimlərdə, eləcə də Oğuz əxlaq sistemində var (48, əxlaq, səh. 131-132).

Ancaq başa düşmək lazımdır ki, icazələri və yasaqları gənclərə, cəmiyyət üzvlərinə, yaxud da düşmənə aşılayarkən iki cəhət yarana bilər, biri icazələrin və yasağın cəmiyyətdə qəbul edilməsində, digəri isə qəbul edilməməsidir. Məsələn, yuxarıda Bamsı Beyrəyin yasağı baş tutmaya bilər, əksi tərəf də müqavimət və qisas ala bilər və pis nəticələrə gətirib çıxara bilər.

Yasaq və icazələrin cəmiyyətdə əxlaq kodeksi kimi öz yerini tutması İlahi və əyani möcüzələr və qüvvələrlə bağlanır. Yəni əxlaq kodeksləri hər hansı ayrıayrı şəxslərin ifadəsi və tələbi ilə formalaşa bilməz. Burada İlahi qüvvələr və dövlət qanunları (Allah, təbiət, dövr, cəmiyyət) əsas meyardır. Daha doğrusu, dinə əsaslanan əxlaq-təməl kimi İlahi qüvvəyə, Qeyb aləminə əsaslanır. Digər əxaliq öyrətilər dövlət, təbiət və cəmiyyət tərəfindən yaranaraq insanlara aşılanır. KDQ-dəki əxlaqi deyimlərdən adın olur ki, türklərin dünyasında əxlaqın təməlində Oğuz elinin gərəkləri durur. Dastanda bu sakralı (İlahi qüvvə) İslami Allah, Xıdır – İlyas və s. İlahi qüvvələr təşkil edir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, əxlaq normalarının aparıcı qüvvələri olan icazələr və yasaqlar müəyyən şəraitlə, məkan və zamanla əlaqədar olaraq baş tuta da bilər, baş tutmaya da bilər. Bu mülahizəni dastanın XI boyunda kafirlər Qazan xanı öldürmək məqamında görürük:

Kafirlər aydır: «Bu bizi ökmədi. Gəlin, bunu öldürəlim!» dedilər. Kafər bəgləri dərildilər gəldilər. Yenə ayıtdılar: «Bunun oğlı var, qardaşı var; bunu öldürmək olmaz», - dedilər (D – 281).

Bu fəlsəfi mülahizələrdən belə bir qənaətə də gəlmək olar ki, əxlaq normaları daimi deyildir, o məkan və zaman daxilində həm dini və İlahi qüvvələr, həm də yaradıla, meydana gələn dövlətlərin qanunları ilə dəyişdirilir, yenisi ilə əvəz edilir. Məsələn, dünyanın altıda bir hissəsini əhatə edən Sovet dövlət quruluşu dini ayinələri, o cümlədən, məscidlər, kilsələr, qədim məbədlər, abidələr dağıdıldı və bir çox keçmiş əxlaq normalarını ləğv edib, yeni əxlaq kodeksi – «Kommunizmin əxlaq kodeksləri» deyilən əxlaq normaları yaratdılar. 1990-cı ildə sosializm sistemi və SSRİ dağıdıldıqdan sonra bu kodeks öz qüvvəsini və təsir dairəsini itirdi.

İki əsrə yaxın davam edən Kommunizm ideyası aradan qalxdı, indi isə Qloballaşma ideyası ortalığa atılıb. Gələcəkdə bəlkə başqa bir ideya yaranacaq. Bunu gələcək göstərəcək.

Buradan belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətin əxalq normaları və tərbiyə sistemi məkan və zaman daxilində dəyişir.

KDQ-də Oğuz bəyləri uşaqlarının bəşəri dəyərlər baxımından torpağa, suya, bütün təbii varlıqlara, insanlara hörmət, hüsn-rəğbət və sevgi ruhunda tərbiyə eidrdilər.

Yeri gəlmişkən, qeyd edək ki, torpaq və su ulu babalarımızın mənəvi dünyasına daxil olmuş, təsəvvürlərində ilahiləşib Tanrı səviyyəsinə yüksəlmişdir.

Oğuzlar gənclərdə vətənpərvərlik və dövlətçilik tərbiyəsinin formalaşması ilə yanaşı əxlaq tərbiyəsinə xüsusi üstünlük verirdilər. Məşhur türk tədqiqatçısı Ziya Göyalp yazırdı ki, əgər qədim yunanlar estetikada, romalılar hüquqda, yəhudilər və ərəblər dində, fransızlar ədəbiyyatda, anqlo-saksonlar iqtisadiyyatda, almanlar musiqi və metafizikada birinci olmuşlarsa, türklər əxlaqda birincilik qazanmışlar.

Bu mülahizə dastanda özünü tam şəkildə doğrultmaqdadır. Belə ki, I boyda – «Dirsə xan oğlu Buğac xan boynı bəyan edər, xanım hey! Dirsə xanın oğlu büğanı meydanda məğlub edib Dədə Qoruqddan ismi və bəylik adını aldıqdan sonra dastanda deyildiyi kimi «Ol qırq yıgit həsəd eylədilər».

Bir-birinə söylədilər: «Gəlün, oğlanı babasına quvlıyalım. Ola kim, öldürə, genə bizim izzətimiz – hörmətimiz olun babası yanında xoş ola, artıq ola», - dedilər. (D – 18).

Vardı bu qırq yigidin yigirmisi bir yana, yigirmisi dəxi bir yana oldı. Əvvəl yigirmisi vardı, Dirsə xana bu xəbəri gətürdi; aydır: «Görürmisin, Dirsə xan, nələr oldı!? Yarımasun, - yarçuması oğlun kür qopdı, ərcəl qopdı. Qırq yigidin boyına aldı. Qalın Oğuzun üstinə yürüş etdi. Nə yerdə gözəl qopdısa çəküb oldi: «Ağ saqqalu qocanın ağzın sögdi. Ağ birçəklü qarının südin tutdı» (D – 18, 19).

Aqan turı sulardan xəbər keçə, arqurı yatan Ala tağdan təpər alsa, xanlar xanı Bayındıra xəbər vara, «Dirsə xanın oğlı böylə bidət işləmiş» deyələr. Gəzdigindən öldigin yeg ola. Bayındır xan səni çağırsa, sonra qatı qəzəb eyləyə. Böylə oğıl sənin nənə gərək? Bölə oğul olmaqdan olmamaq yegdir. Öldürsənə!» - dedilər (D – 19).

Digər 20 namərd Dirsə xanı qarşıladılar və ona dedilər: «Qalqubanı, Dirsə xan, sənin oğlın yerindən uru turdı, köksi gözəl qaba tağa ava çıqdı. Sən var ikən av avladı, quş quşladı. Anasının yanına alub gəldi. Al şərabın istisindən aldı, içdi. Anasilə söhbət eylədi, atasına qəsd eylədi. Sənin oğlın kür qopdı, ərcəl qopdı» (D – 20).

Paxıl sözünə inanan Dirsə xan yeganə oğlunun bu əxlaqsızlığına dözə bilmir, onu sınaq döyüş meydanında ölümcül yaralayır və oğlunu ölmüş bilib qayıdır.

**2.** Əxlaq tərbiyəsinin əsas vəzifələrindən biri xalqın adət-ənənsini mənimsəmək və onu yaşatmaq idi.

Buradan aydın olur ki, Oğuzlarda gənclərin əxlaq tərbiyəsi əsas və birincilərdən biri olmuşdur. Oğuzlar övladlarını səxavətli, məğrur tərbiyə etmək və türklüklərini qoruyub saxlamaq məqsədi ilə daim öz ata-baba adətlərini gənc nəslə nümunə gətirir və onları yaşadaraq dinini, dövlətçiyi və türk irqçiliyini qoruyub saxlayırdılar. Bunu onunla izah etmək olar ki, Beyrək, Uruz və digər Oğuz igidləri düşmən əlinə keçərkən kafirlər onlara qızlarını, mal-mülklərini təklif edirdilər ki, onların dininə dönsünlər, onlarla qaynayıb qarışsınlar. Dastanda görürük ki, Oğuz gəncləri həyatlarını təhlükəyə ataraq heç zaman kafirlərin təklifi ilə razılaşmamışlar.

Yeri gəlmişkən, Xoşqədəmin verilişlərindən aydın olur ki, hazırkı şəraitdə ailəli gənclərimiz işləmək adı ilə xaricə üz tuturlar, aradan bir neçə ay keçməmiş xəbər gəlir ki, artıq onlar evlənmişlər. Bu da ondan irəli gəlmişdir ki, 200 il Oğuzların xələfləri başsız qalıb müxtəlif işğalçı dövlətlərin xoşagəlməz təbliğatlarına məruz qalmışlar. Millətimizin milli tərbiyəsində boşluq yaranmışdır. Şükür, artıq müstəqilliyimizi əldə etdik, artıq təlim-tərbiyə sistemimiz sərbəst inkişaf edir. Qoy gənclərimizə Beyrəyin əxlaqı nümunə olsun. o, 16 il tusdaq oldu, nişanlısı Banıçiçəyin eşqi ilə yaşadı, Baybud sultanının təklifini rədd edərək, onun qızı ilə evlənməyib dinini, əxlaq normasını, kökünü, eşqini unutmadı.

Dastanda oğuz bəyləri uşaqlarını bəşəri dəyərlər baxımından torpağa, suya, bütün təbii varlıqlara, insanlara hörmət, hünsü-rəğbət və sevgi ruhunda tərbiyə edirdilər. Onlar tərbiyəni sistemli şəkildə, ardıcıllıqla, praktik şəkildə, həyat fonunda aşılayırdılar. Burada başlıca məqsəd Vətən torpağını şərəflə qorumaq, onun sərvətlərini mühafizə edib cəmiyyətə çatdırmaq idi. Bu ruhda da oğuzlarda tərbiyə sistemi qurulurdu. Dastanın bütün boylarında gənclərin tərbiyəsi əsas götürülür. Bu tərbiyə sistemi Dastanın I boyundan («Dirsə xan oğlu Buğac xan boyunu bəyan edər, xanım hey!..») gənclərin tərbiyə sistemi başlayır.

Oğuz elində əxlaqın əsas əlamətlərindən biri namusdur. Oğuz elində namussuzluq ən bağışlanmaz cinayətdir. Bu cinayətə heç bir güzəşt, heç bir aministiya yoxdur. Namus kredosunda əsas ölçü ərin adını, heysiyyətini qorumaqdır. Tərbiyə elə aparılıb, cəmiyyət bu davranışa elə hazırdır ki, namus yolunda hərəkətlər avtomatlaşıb, öz-özünə icra olunur. Qadın ərinin adını qorumaq üçün ölümə getməyə hazırdır. Oğul atasının namusu üçün ölümə tərəddüdsüz razıdır. Ana ərinin namusu yolunda oğlunun doğranmasına razı olur. Dastanda deyilənləri ictimai norma kimi reallaşdıran bir klassik səhnə var. Evini yağmalaya, ailəsini əsir aparan kafirlər Qazandan daha şiddətli intiqam almaq üçün xatununu kef məclisinə gətirib onunla əylənmək istəyirlər. Şöklü Məlik Qazanın xatununun dalınca adam göndərir, ancaq onu seçə bilmir – Şöklü Məlikdən gələn adam «Qazan bəgin xatunu qanğınızdur» (D – 51) dedikdə qırx yerdən «Mənəm» avazı qalxır. Düşmən öz niyətinə çatmaq üçün daha alçaq tədbirə əl atır ki, Qazan oğlu Uruzu doğrayıb bişirsinlər, qadınların qarşısına qoysunlar, kim yeməsə, xanın xatunu odur. Qazanın qadını Boyu uzun Burla xatun bu xəbəri çatdırdıqda, Uruz anasına belə deyir: «Ağzun qurusun, ana! Dilin çürüsün, ana! Ana haqqı – Tanrı haqqı deyilməsəydi, qalqubanı yerimdən duraydım, yaqanla boğazından tutaydım, qaba ökcəm altına salaydım, ağ yüzünü qara yerə dəpəydim, ağzun ilə burnundan qan şorladaydım... Saqın, qadın ana!.. Mənim üçün ağlamayasan. Qoy bəni, qadın ana, çəngələ ursunlar, qoy ətimdən çəksünlər, qara qavurma etsinlər, qırq bəg qızının öginə iltəsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafirlər bilməsunlər – tuymasınlar; ta kim sasi dinlü kafirün döşəginə varmayasan, sağrağın sürməyəsən, atam Qazan namusını sımayasan. Sagin!» (D – 54). Bu Oğuzun ailə namusunun örnəyidir. Ancaq bu ailə namusları cəmlənib Qalın Oğuz elinin əxlaq normasını təşkil edir. Qazan xanın xatununu sorarkən, qırx bəy qızının xorla «mənəm» söyləməsi o deməkdir ki, namus Oğuz elində ictimai davranışdır: bir ailə ərinin namusu o ailə üçün nədirsə, dövlət başçısının namusu da millət üçün həmin odur.

Ailə namusunun Oğuz elində ümum əxlaq norması şəklində saxlanması ərin qadınına verilən ad təyinatında da əks olunur: Oğuz elində ərin qadınına, bügünki təbirlə həyat yoldaşına halal deyirlər: «Qaçan Qazan evin yağmalatsa, halallının əlin alur, tişra çıqar, andan yağma edərdi». (D – 292) («Qazan öz şeylərini talan elətdirərkən arvadının əlindən tutub kənar çıxır, ondan sonra evəşiyini oğuz əhlinin ixtiyarına verərdi») (D – 292).

Qadın kişinin halallığı barədə xan qızı Burla xatunun sözlərini dastanda oxuyuruq: «Xan qızı həlalını tanımıyan gözün olmuş! («Xan qızını, arvadını tanımayır gözün sənin!); (D – 149). «...Qırq incə bellü qızlan Qazanın həlalını tutmışız» (...qırq incə bellü qızla Qazanın arvadını tutmuşuq»); (D – 39); «Qırqış incə bellü qızla Qazanın həlalını biz gətürmisiz» («Qır incə bellü qızla Qazanın arvadını biz gətirmişik») (D – 40).

Yeri gəlmişkən, «halal» sözü çox mənalı sözdür o, hər hansı dil ünsiyyətində danışılan əşya və ya sosial və hüquqi problemlərlə əlaqədar olaraq işlənə bilər. Məsələn, ərzaq məhsullarının hazırlanmasında, ticarət müəssisələrində, mədəni-maarif sahəsində olan münibətlərdə «halal» sözü işlənir. Ancaq sözün tarixi-etmoloji kök orta əsrlərdə KDQ-də meydana gəlmişdir ki, bunun mənası kişinin həyat yoldaşını bildirirdi. Məsələn, Qazanın «halalı», yəni Qazanın arvadı.

*(Davamı var)*



***Yusif QAZIYEV,***
***Pedaqogika üzrə elmlər doktoru,***
***Əməkdar müəllim***